**TƏHMİNƏ ASLANOVA**
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin aspirantı*

# İDARƏÇILIKDƏ SƏRT MƏRKƏZLƏŞDIRMƏ PROSESININ AZƏRBAYCAN RƏHBƏRLIYINDƏ SIYASI QRUPLAŞMALARIN FƏALLAŞMASINA TƏSIRI (XX ƏSRIN 20-CI ILLƏRININ SONU – 30-CU ILLƏRIN ƏVVƏLI)

20-ci illərin ikinci yarısı Sovet cəmiyyətinin tarixinə "xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması" adı altında daxil olmuşdu. Bu dövr "sənayeləşmə" və "kollektivləşmə" siyasətinin tələm-tələsik yerinə yetirilməsi kimi qiymətləndirilirdi. Sənayeləşdirmə ölkənin sənaye potensialını artırmağı, ağır sənayeni, xüsusilə kömür, neft, metallurgiya sənayesini, istehsal vasitələri istehsalı sahəsini inkişaf etdirməyi nəzərdə tuturdu. 1928-ci ilin noyabrında MK-nın iclasında Stalin ağır sənayenin başlıca rol oynaması səbəbini izah edəndə bildirdi ki, ölkədə sosializmin tam qələbəsi üçün kapitalist ölkələrini siyasətlə yanaşı, texniki və iqtisadi baxımdan da geridə qoymaq lazımdır. O, 1931-ci ildə ölkənin sənaye cəhətdən modernləşdirilməsinin vaxtını kifayət qədər dəqiq müəyyənləşdirdi: "Biz qabaqcıl ölkələrdən 50-100 il geridəyik, bu məsafəni 10 ilə qət etməliyik. Ya bunu edəcəyik, ya da bizi əzəcəklər."(1, səh.141). N.İ.Buxarin, Aleksey Rıkov (Xalq Komissarları Sovetinin sədri) və Mixail Tomski (Həmkarlar İttifaqları rəhbəri) sənayeləşməni kəndlilərin hesabına inkişaf etdirməyin əleyhinə çıxırdılar. Onlar kəndlilərdən sosializm quruculuğunda bərabər hüquqla istifadə etməyi təklif edirdilər. Alternativ fikirlərin barışmazlığı partiyadaxili ziddiyyətləri daha da dərinləşdirirdi. Siyasi büroda parçalanma göz qabağında idi. Buxarin Stalinin iş metodunu "fiziki yumruq siyasəti" kimi qiymətləndirdi. ÜİK (b) P MK və MNK-nın birləşmiş aprel (1929-cu il) Plenumu Buxarin - Rıkov qrupunu ÜİK(b)P-də sağ təmayül adlandırdı. Nəhayət, ÜİK(b)P MK-nın noyabr (1929-cu il) Plenumu "sağ təmayül"ün liderlərinin məsələsini müzakirə edib, Buxarini MK Siyasi bürosunun heyətindən çıxartdı. Rıkov və Tomskiyə ciddi xəbərdarlıq edildi.

Siyasi sferada isə Stalin nomenklatura oliqarxiyası hakimiyyətini (partiya diktaturasını) özünün tək diktaturası ilə əvəz etdi. Rəhbərlik avtokratiya səciyyəsi daşımağa başlayırdı. Bu, möhkəmlənməmiş sovet bürokratiyasının geniş "orta" təbəqəsinin marağına uyğun gəlirdi, hansı ki, Stalinin şəxsində rəhbərlikdəki ixtilaflara son qoyacaq, onlara sabit maddi durumu təmin edəcək qaydanı yarada bilən güclü siyasətçi görürdülər.

1920-ci illərin sonundan gücləndirilmiş sənayeləşdirmə metodları şəraitində bütün ümumittifaq miqyasında idarəçiliyin sərt mərkəzləşdirilməsi prosesi başlayır. Azərbaycan Kommunist Partiyasında da vəziyyət gərginləşir. 1929-cu ildə N.F.Gikalo və Ə.H.Qarayev AK (b) P MK-nın sədrləri seçilir. Lakin sonuncu katibliyin tərkibindən xaric olunana qədər qrup mübarizəsini davam etdirirdi.

Mərkəzin kəndə münasibətdə yeritdiyi siyasətin uğursuzluğu, yerlərdə güclü müqavimətin göstərilməsi fikirləri çaşdırmaq üçün onu ucqarlarda süni "qrup mübarizəsi" axtarmağa və yaratmağa vadar edirdi. İnsanların aşağı səviyyəli həyat tərzi, görülən tədbirlərin, yeniliklərin heç bir effekt verməməsi, bir sözlə, bütün nöqsanlar rəhbərlikdəki qrup mübarizəsi ilə izah edilirdi. Zaqafqaziya Kommunist təşkilatlarının VI qurultayının qətnaməsində deyilirdi: "Son vaxtlar Azərbaycan Kommunist partiyasında sabiq rəhbərliyin müxtəlif işçilərinin yeni rəhbərliyə qarşı qrup mübarizəsi təşkil etmək cəhdləri üzə çıxıb, eyni zamanda rəhbər kadrlar daxilində də qrupbazlıq ünsürləri nəzə-

rə çarpır. Qurultay bu qrupbazlığı tənqid edir". (2, səh.34-35). Həm köhnə rəhbərlik zamanında işləyənlərə, həm də o zamanın müəyyən mövqe sahiblərinin yeni hakimiyyətə qarşı qrup mübarizəsi aparmaları qənaəti böyük narahatçılığa səbəb olmuşdu. Gikalo, belə desək, işinin öhdəsindən gələ bilmirdi. Cəmiyyətdə bir durğunluq vardı. Heç kəs normal işləmir, istehsala önəm verilmir, hamı bu və ya digər partiya özəyində düşmən axtarır, onlara qarşı hansısa hazırlıq işinin aparılmasından danışılırdı. Mədən işçiləri ittifaqının rayon şöbəsinin sədri Əmir Qulunun dediyi kimi: "... Bütün xalq savaşdan danışır, savaşır, heç kim heç nə etmir. Kütləni istehsala cəlb etmək belə daxili çəkişmələr üzündən mümkün deyil". (3, f.1, siy.74, iş.292, səh.196). Kadr məsələsində də problemlər vardı. Kimləri təyin edəcəkləri barədə qətiyyətsizlik hökm sürürdü. Dəyişən rəhbərliyin nümayəndəsi olan Əsgər Əfəndiyev partiya işində qalmaqla Qarabağ təşkilatında işləməyi davam etdirmək istədiyini Gikaloya bildirəndə onun cavabı belə olmuşdu: "Bilirsinizmi ki, digər qrupun nümayəndəsi (rəhbər işçilərin qrupu nəzərdə tutulur) sizinlə işləməyi özləri üçün qeyri-mümkün hesab edirlər. Yaxşı olar ki, bir neçə pis, lakin həmrəy kadrlara malik olasan". (3, f.1, siy.74, iş.297, səh.95). Gikalo özü yaranmış qarışıq durumla, özbaşınalıq təzahürləri ilə mübarizə apara bilmirdi. "Bizdə elə işçilər var ki, içərisində hər kəsə aid materiallarla dolu qovluqlarla gəzib, dəhşətli ərizələr yazırlar. Deyirlər, Naxçıvanda elə peşəkarlar var ki, bir ciblərində lazımi anda məsul işçilər qarşısında göz yaşı tökmək üçün soğan və sarımsaq gəzdirir, digər ciblərində isə müvafiq sənədlər olur". (3, f.1, siy.74, iş.295, səh.45). Yenə siyasi sistemin - "totalitarizmin" əsas əlamətlərindən biri "daimi təmizləmələr" olmaq etibarilə hakimiyyət, nüfuz uğrunda mübarizədə etibarlı köməkçi vasitə idi. Lakin bu işin keyfiyyəti son dərəcə aşağı olub, ciddi nöqsanlarla müşayiət olunurdu. Təmizləmələr hakimiyyətə niyə lazım idi? Gündəlik həyatdakı çətinliklərə dözmək, işləmək həvəsini stimullaşdırmaq üçün istehsalda baş verən qəzaların, tələbat malları, ərzaq çatışmazlığının səbəbi olaraq əhalinin başa düşəcəyi konkret izahlar axtarılırdı. Əvvəl hər şeydə günahkar "qolçomaqlar" və "burjua mütəxəssisləri" oldu; sonra – partiyaya, dövlət orqanlarına, zavod və kolxozlara soxulan istismarçı siniflərin nümayəndələri; nəhayət – "xarici kəşfiyyatın cəlb etdiyi" kommunistlər. (4, səh.46). 1929–cu ildə Bakı təşkilatında həyata keçirilən təmizləmələrdə yoxlanılan fəhlə, kənd, idarə, hərbi və təhsil özəkləri sırasından əsasən kənd və təhsil özəklərində azərbaycanlılar xaric edilməyə görə ruslar və ermənilərə nisbətən çoxluq təşkil edirdilər. Bu iki özəkdə xaric edilmə səbəbləri içərisində "yad ünsür və onunla əlaqə" səbəbindən çıxarılanların sayı daha çox idi. Yəni, partiyaya əksinqilabi məqsədlə girib, özünün polis, mühafizə, jandarma və qolçomaqların işində iştirakını gizlədir. Maraqlıdır ki, millətçilik, şovinizm, antisemitizm səbəblərinə görə xaric edilənlər rusların sayca I yerdə olduğu fəhlə özəklərində digər özəklərə nisbətən çoxdur (fəhlə özəklərində 45(1,3 %), kənd özəklərində 8 (1,4%), sovet özəkləri üzrə 5 nəfər (0,7%)). (5, səh.7).

Yeni rəhbərlik mərkəzin tələblərinə cavab verə bilmədi. Azərbaycanda siyasi rəhbərlikdə görünməmiş qarışıqlıq qarşıya qoyulan vəzifələri yerinə yetirməyə mane olurdu. Onu dəyişmək vaxtı artıq çatmışdı. 1929-cu ilin dekabrında AK(b) P MK plenumunun növbəti iclasında MK katibliyinin yeni tərkibi təsdiq olundu: "Ə.H.Qarayev Zaqafqaziyada rəhbər işə keçdiyi üçün MK katibləri: 1.N.F.Gikalo; 2.R.Axundov; 3.H.Rəhmanov təsdiq edilsinlər". (3, f.1, siy.74, iş.63, səh.383).

1929-cu ildən 1933-cü ilin fevralına qədər Azərbaycan bolşeviklər partiyasına əvvəl Gikalo, Polonski, sonra isə Ruben rəhbərlik etmişlər. Onlar Mərkəz tərəfindən göndərilirdilər, yerli xüsusiyyətləri, adət-ənənələri və yerli dili bilmir, tez bir zamanda qruplaşmaların təsiri altına düşürdülər. Gikalo köhnə bolşevik olmasına baxmayaraq, fəhlə mənşəyinə malik deyildi,ixtisası həkim idi. Azərbaycan partiyasına iki ildən artıq rəh-

bərlik edən, 1912-ci ildən partiya üzvü olan Polonski Leninqrad metalçı fəhləsi idi və Azərbaycana təyin olunana qədər Həmkarlar ittifaqlarının Ümumittifaq Mərkəzi Şurasında II katib vəzifəsində çalışmışdı. (6, səh.171).

20-ci illərin sonunda partiyada hakimiyyətin dəyişilməsinin mövcud vəziyyətə müsbət cəhətdən heç bir təsiri olmadı. Ə.H.Qarayevin başçılığı ilə köhnə rəhbərlik katibliyin yeni yaradılan tərkibinə qarşı mübarizəni fəallaşdırdı. 1930-cu ildə partiyanın Zaqafqaziya qurultayında Azərbaycan partiya təşkilatı iki düşərgəyə parçalandı. Növbəti addım Gikaloya 1930–cu il avqustun 1-dən 2 aylıq müddətə məzuniyyət verilməsi oldu. Daha sonra ÜK(b)P MK-nın Bakı təşkilatının işi haqqında 1930–cu il avqustun 3-də verdiyi qərar elan edildi. Orada AK(b) P və Bakı təşkilatı rəhbərliyində prinsipsiz qrup mübarizəsinin getdiyi və Gikalonun bu səbəbdən partiya fəallarını birləşdirə bilməməsi göstərilirdi."Bunlardan çıxış edərək ÜK(b)P MK qərara alır:

1.Gikalonu Azərbaycanda işdən azad etmək;

2.Bağırov, Qoldbaum, Maşkeviç, Əlixanov, Stolyarov və Aması Azərbaycanda işdən geri çağırmaq;

3....Qasımova Azərbaycanda qrup işini apardığına görə xəbərdarlıq edilir;

4.Azərbaycan MK katibləri kimi məsləhət görülür: V.İ.Polonski – I katib. O,eyni zamanda BK və BK Bürosunun tərkibinə daxil edilir. Müzəffər Nərimanov – II katib; Hüseyn Rəhmanov – III katib ..." (3, f.1,siy.88,iş.23,səh.33-34).

Respublikanı tərk edən Ə.H.Qarayev isə Moskvaya gedir. O, burada 1932-ci ildə "antisovet fəaliyyətinə" görə ilk dəfə olaraq həbs olunur.Qeyd etmək lazımdır ki, ona qarşı ifadə verənlər sırasında yaxın dostu M.D.Hüseynov da vardı. Ə.H.Qarayev 1938-ci il aprelin 21-də güllələnir, yalnız ölümündən sonra Ali məhkəmənin 1955-ci il dekabrın 1-də verdiyi qərarla bəraət qazanır. Hakimiyyət üzərində partiyanın deyil, onun aparat hissəsinin inhisarı mövcud idi. Onun əsas rəhbərləri ittifaq respublikaları miqyasında MK katibləri idi. Bütün respublikada hakimiyyət I katibin əlində idi, hansı ki, respublikanın sahibi kimi hərəkət edir və bütün respublika idarələrinə nəzarət edirdi. Onunla yanaşı digər katiblər də vardı. Əgər I katib ümumi rəhbərliyi həyata keçirirdisə, o birilər digər sahələrə rəhbərlik edirdilər: sənaye, kənd təsərrüfatı, kadrlar, ideologiya.

Bu cəhətdən Azərbaycanda idarəçilik səlahiyyətlərinin üç katib arasında necə bölüşdürülməsi diqqəti cəlb edir. Polonskinin səlahiyyətlərinə daxil idi: AK(b)P MK və BK-ya ümumi rəhbərlik, AK(b)P MK və BK Bürosu və plenumlarına rəhbərlik, AK(b)P MK-nın təşkilat-təlimat şöbəsi, eləcə də Kaspar, neft, pambıq sahələri bura aiddir.

Müzəffər Nərimanovun səlahiyyətləri bu sahələri əhatə edirdi: AK(b)P MK katibi; MK-nın mədəni təbliğat və təşviqat şöbəsi; kənd təsərrüfatı məsələləri (sovxoz, kolxoz, kooperasiya); sovet quruculuğu; sosial-mədəni və maliyyə, eləcə də ticarət məsələləri (tədarük, vergilər).

H.Rəhmanov isə aşağıdakı işlərə nəzarət edirdi: MK-nın bölüşdürücü və maliyyə şöbəsi; həmkarlar ittifaqı; komsomol; kustar yerli və respublika sənayesi məsələləri (toxuculuq, balıqçılıq); fəhlə təchizatı və yaşayış yeri tikintisi; hərbi məsələlər (MK-nın siyasi səfərbərlik komissiyası). (3, f.1,siy.74,iş.301,səh.77).

Azərbaycanda o dövrkü hakimiyyət canişin xarakteri daşıyırdı. Onun əsas vəzifəsi imperiya dövlətinin məqsəd və maraqlarını təmin etmək idi. Hakimiyyət Moskva mərkəzindən həddindən artıq asılı idi. Mərkəz və əyalətlər arasında münasibət mürəkkəb olsa da, sovet totalitar sistemi respublikalar üzərində birbaşa nəzarəti saxlamağa çalışırdı. I katib hakimiyyətini o halda qoruyub saxlaya bilərdi ki, Mərkəzin bəzən qanuna zidd qərarlarının vaxtında yerinə yetirilməsini təmin etsin. Sistem belə idi. O illərdə mərkəzi idarələrdə azərbaycanlıların sayının azalması göz qabağında idi. Bunu rayon

aparatının möhkəmləndirilməsi, pambıq yığımının, eləcə də kollektivləşmənin genişləndirilməsi üçün onların rayonlara göndərilməsi ilə izah edirdilər. Baxmayaraq ki, respublikanın 39 idarəsi üzrə azərbaycanlıların sayı 1928-ci ildə 1.334 nəfərdən 1931-ci ildə 2.374 nəfərə çatmışdı, faiz 31-dən 28-dək enmişdi. "Türk işçilərinin faizinin azalması əsasən bu idarələrdə müşayiət olunurdu: XKS-də 1928-ci ildəki 65%-dən, 1931-ci ildə 45%-dək, müvafiq olaraq Dövlət Plan İdarəsində 67%-dən 39%-ə, Ali Məhkəmədə 66%-dən – 46%-ə, Azsənətbirliyində 65%-dən – 39%-ə, Azbalıqda 21%-dən – 11%-dək azalmışdı". (7, səh.28).

V.İ.Polonski də mərkəzin ümidlərini doğrultmadı. Azərbaycandan bir-birinin ardınca yazılan şikayət ərizələri, məktublar artıq son həddə çatmışdı. ÜK(b)P MK-nın 1933-cü il yanvarın 24-də verdiyi qərarla Polonski vəzifəsindən çıxarılaraq yerinə Moskva şəhər partiya komitəsinin katibi Ruben təyin olunur. Onun namizədliyini Orconikidze irəli sürmüşdü. Mərkəzin bütün diqqəti Bakı neftində idi. Ölkənin digər neft mənbələri (Qroznı, Maykop, Enba) gözlənilən nəticəni vermədiyindən yeganə çıxış yolu kimi Bakıda hasilatı artırmağı görürdülər. 1934-cü il üçün Azərbaycan 20 milyon ton neft verməli idi. Təsərrüfatın digər sahələrində isə geriləmələr davam edirdi. Azərbaycanın bir sıra rayonlarında (Ağdam, Zəngilan, Qaradonlu (indiki İmişli), Biləsuvar, Sabirabad) aclıq halları qeydə alınmışdı. Taxıl tədarükünü yerinə yetirməyənləri partiyadan çıxarmaq, məhkəməyə verməklə hədələyirdilər. Nöqsanları deyənlər əks-inqilabi trotskizmin qalıqları, antipartiya qruplaşmaları adlandırılaraq təqiblərə məruz qalırdılar. 1932-33-cü illərdə "sağ" və "sol" opportunist təmayül və onlara münasibətdə barışdırıcı mövqeyə görə AK (b) P-nin 218 nəfər üzvü və namizədi partiya məsuliyyətinə cəlb edilmiş, onlardan 85 nəfəri partiyadan xaric olunmuşdu. (8, səh.6). "Kənddə partiya siyasətinin əyintiləri ilə mübarizə" şüarı altında müxtəlif rayon katiblərini işdən çıxarmaq adi hala çevrilmişdi.

Vəziyyətin daha da pisləşməsi qoyulan plan göstəricilərinin yerinə yetirilməsinə əngəl olduğundan, mərkəz vəziyyəti nəzarətdə saxlamağa çalışırdı. 1930-32-ci illərdə neft hasilatında olan durum heç də ürəkaçan deyildi. Bunu Q.K.Orconikidzenin 1930-cu ildə AK(b)P BK plenumundakı çıxışından görmək olar: "...Siz qətnamədə göstərirsiniz ki, bu il plana görə verməli olduğunuz 50.000 t. benzini verməmisiniz. Çünki sizin təşkilat son vaxtlar əsəbi və həyəcanlı vəziyyətə qatlaşıb. Bütün təşkilatı prinsipsiz çəkişmə sarsıdıb". (3, f.1,siy.88,iş.20,səh.32). 30-cu illərin əvvəllərindən başlayaraq M.C. Bağırovun da siyasi rolu əhəmiyyətli dərəcədə artır. 1931-1932-ci illərdə o, ÜK (b) P MK yanında marksizm-leninizm ali kurslarının dinləyicisi olur, sonra qısa müddətə ÜK (b) P MK aparatında təlimatçı kimi işləyir və artıq 1932-ci ilin noyabrında ASSR XKS sədri vəzifəsinə təyin olunur, bir ildən sonra isə AK(b)P MK-nın I katibi olur. Bağırovun hakimiyyətə gəlməsində Stalinin də müəyyən qədər təsiri var idi. Siyasi büronun onun namizədliyi müzakirə olunan iclasından sonra Stalin demişdi: "Azərbaycanı azərbaycanlılar idarə etməlidirlər. Bu, hər şeydən əvvəl, partiyanın beynəlxalq siyasəti baxımından mühüm əhəmiyyətə malikdir. Lenin əbəs yerə deməyib ki, Azərbaycan şərqdə forpostdur, bura şərqə qapıdır". (9, səh.59). Bütün bunlar sübut edir ki, Stalin doğrudan da Azərbaycan rəhbərliyinə azərbaycanlını təyin etmək nəticəsinə gəlmişdi.

Bağırov yaxşı icraçı idi. O rəhbər olduqdan qısa müddət sonra, 20-ci illərin sonu - 30-cu illərin əvvəllərində respublikanı dağıdan siyasi intriqaçılığa, bir qrup rəhbərlərin digərlərindən Moskvaya şikayətinə son qoyulur.

Beləliklə, Sovet Azərbaycanının partiya elitasının formalaşması və fəaliyyəti bir daha o dövrdəki siyasi ab-havanın nə dərəcədə ağır, çətin və qarışıq olduğunu, milyonlarla insanların taleyi ilə bağlı müxtəlif səpkili qərarların düşünülmədən verildiyini aydın şəkildə göstərirdi.

## ƏDƏBIYYAT

1.Костырченко Г.В. Тайная политика Сталина: власть и антисемитизм. Изд. 2-е, М.: Междунар. Отношения, 2003. - 784 с.
2.Резолюции VI съезда Коммунистических организаций Закавказья. 5-12 июня 1930 г. Тифлис, Заккнига, 1930.
3.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi.
4.Горинов М.М. Советская страна в конце 20-х –начале 30-х годов // Вопросы истории. 1990,№11, с. 31-47.
5.Итоги чистки Азербайджанской парторганизации и работа РКИ (в цифрах). Баку, «ЦК и БК АКП (б)», 1930, 35 с.
6.Мамедова Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане. 1920–1930 гг. Баку, «Адилоглы», 2004, 320 с.
7.Отчет о работе ЦКК-РКИ Азербайджана за январь-июнь 1931 г. Баку, «Ш Интернационал», 1931, 78 с.
8.Материалы к отчету ЦКК-РКИ Азербайджана (январь 1932 г. - декабрь 1933 г.). Баку, Партиздат, 1934, 112 с.
9.Исмаилов Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку, «Адилоглы», 2003, 344 с.

**ТАХМИНА АСЛАНОВА**
*аспирант Бакинского Государственного Университета факультета Истории*

## ВЛИЯНИЕ ПРОЦЕССА ЖЕСТКОГО ЦЕНТРАЛИЗОВАННОГО УПРАВЛЕНИЯ НА АКТИВИЗАЦИЮ ПОЛИТИЧЕСКИХ ГРУППИРОВОК В АЗЕРБАЙДЖАНСКОМ РУКОВОДСТВЕ (КОНЕЦ 20-Х – НАЧАЛО 30-Х ГОДОВ XX ВЕКА)

В условиях форсированных методов индустриализации начался процесс жесткого централизации управления во всесоюзном масштабе с конца 1920-х годов. Власть того времени в Азербайджане носила наместнический характер. Ее главным назначением было обеспечение целей и интересов имперского государства, каким являлся Советский Союз. Власть была слишком зависимой от московского центра. Несмотря на то, что отношения между центром и провинциями были достаточно сложными, советская тоталитарная система старалась удержать прямой контроль над республиками. Формирование и функционирование партийной элиты Советского Азербайджана еще раз показывает, насколько тяжелой, трудной и запутанной была политическая атмосфера того периода, насколько необдуманными и спонтанными были решения, касающиеся судьбы миллионов людей.

**TAKHMINA ASLANOVA**
*aspirant department of History Baku state university*

## THE INFLUENCE OF THE PROCESS OF SEVERE CENTRALIZATION IN THE RULE TO THE ACTIVITY OF POLITICAL GROUPS IN AZERBAIJAN LEADERSHIP (AT THE END OF THE 20$^{TH}$ –BEGINNING OF THE 30$^{TH}$ OF THE XX CENTURY )

Under the situation of the forcing industrialization methods the process of severe centralization of the ruling on a all-union scale since from the end of 1920$^{th}$ years began. The main duty of the power was to ensure aims and interests of the empire state, as the Soviet Union was. The power

was very dependent on Moscow centre. Although the relations between centre and regions were enough difficult, the soviet totalitarian system attempted to keep directly control over the republics. The formation and function of the elite of party of Soviet Azerbaijan shows one more that how the politic atmosphere of that period was hard and confuse, how the decisions were not thought enough, which have relation to the fate of the millions of people.

***Rəyçilər: prof.F.F.İbrahimli, t.e.d.A.Ə.Məmmədov.***

***BDU-nun Tarix fakültəsinin «Azərbaycan tarixi» (humanitar fakültələr üzrə) kafedrasının 06 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***